**Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 945-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"ndan**

**ÇIXARIŞ**

3.1. Aşağıda göstərilən vəzifəli şəxslər maliyyə xarakterli məlumatları Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına (bundan sonra «Komissiya» adlandırılacaq) təqdim edirlər:

Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin Sədri və onun müavinləri, Azərbaycan Respublikasının Baş naziri və onun müavinləri, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Azərbaycan Respublikası Milli Məclisinin Aparatının, **Azərbaycan Respublikası Hesablama Palatasının Aparatının,** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Aparatının, Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparatının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatının, Məhkəmə-Hüquq Şurasının Aparatının, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatının rəhbərləri, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri, onların müavinləri və onlara bərabər tutulan şəxslər, «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikası Qanununun 11.1.2-ci maddəsində nəzərdə tutulmuş inzibati vəzifələri tutan şəxslər, 11.1.3-cü maddəsində nəzərdə tutulmuş 2-ci kateqoriya dövlət orqanlarının rəhbərlərinin müavinlərinin vəzifələrini və bölmə rəhbərlərinin vəzifələrini tutan şəxslər, habelə 11.1.4-cü maddəsində nəzərdə tutulmuş 5-ci kateqoriya dövlət orqanlarının aparatları rəhbərlərinin vəzifələrini tutan şəxslər və onlara bərabər tutulan vəzifəli şəxslər, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri və onun müavinləri, Naxçıvan Muxtar Respublikasının Baş naziri və onun müavinləri, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və onların müavinləri, yerli icra hakimiyyətlərinin başçıları, Azərbaycan Respublikası məhkəmələrinin hakimləri, Azərbaycan Respublikasının Baş prokuroru və onun müavinləri, şəhər, rayon və hərbi prokurorları, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman), Azərbaycan Respublikasının Mərkəzi Bankının, **Hesablama Palatasının**, Mərkəzi Seçki Komissiyasının sədrləri və onların müavinləri, Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin direktoru və onun müavini, Milli Televiziya və Radio Şurasının sədri,

İctimai Televiziya və Radio Yayımları şirkətinin baş direktoru və onun müavinləri, Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfirləri, beynəlxalq təşkilatlardakı daimi nümayəndələri, baş konsulları, dövlət ali təhsil müəssisələrinin rəhbərləri, dövlətin nəzarət səhm zərfinə sahib olduğu təsərrüfat subyektlərinin rəhbərləri, habelə Komissiya tərəfindən müəyyən edilən dövlət idarə, müəssisə, təşkilatlarının və mərkəzi icra hakimiyyəti orqanlarının ərazi və ixtisaslaşdırılmış qurumlarının rəhbərləri.

3.2. Azərbaycan Respublikası Milli Məclisinin deputatları**, Azərbaycan Respublikası Hesablama Palatasının üzvləri** maliyyə xarakterli məlumatları Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən müəyyən edilmiş quruma təqdim edirlər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 24 iyun 2005-ci il**
**№ 945-IIQ**